**UOT 004.8**

*DOI: 10.25045/ASUCAAI.2025.66*

# MÜASİR İNCƏSƏNƏT MƏKANINDA SÜNİ İNTELLEKT

**Nəzrin Əliyeva Rais qızı**
Müəllim
Bakı Biznes Universiteti
Bakı, Azərbaycan
neliyeva305@gmail.com

## Xülasə

Müasir incəsənət daim yeni texnologiyalarla inteqrasiya edərək öz sərhədlərini genişləndirir. Süni intellekt (Sİ) bu prosesdə mühüm rol oynayaraq həm yaradıcı, həm də analiz funksiyalarını yerinə yetirir. Sİ alqoritmləri rəsm, musiqi, ədəbiyyat və digər incəsənət sahələrində yeni üslublar və formalar yaratmağa imkan verir. Eyni zamanda, Sİ sənət əsərlərinin analizi, təsnifatı və fərdi auditoriyaya uyğunlaşdırılması üçün də istifadə olunur. Bununla belə, süni intellektin incəsənətdə rolu etik və estetik mübahisələrə səbəb olur. Sənətkarın yaradıcılıq azadlığı və insan faktorunun dəyəri ilə bağlı suallar aktual olaraq qalır. Nəticə etibarilə, süni intellekt müasir incəsənətin inkişafında yenilikçi bir vasitə olmaqla yanaşı, onun mahiyyəti haqqında yeni diskussiyalar yaradır.

**Nazrin Aliyeva**

## Artificial Intelligence in the Space of Modern Art

## Abstract

Contemporary art is constantly expanding its boundaries by integrating with new technologies. Artificial intelligence (AI) plays a significant role in this process, serving both creative and analytical functions. AI algorithms enable the creation of new styles and forms in painting, music, literature, and other fields of art. Additionally, AI is used for analyzing, classifying, and tailoring artworks to individual audiences. However, the role of AI in art raises ethical and aesthetic debates. Questions regarding the artist’s creative freedom and the value of the human factor remain relevant. Consequently, artificial intelligence is not only an innovative tool in the development of contemporary art but also a catalyst for new discussions about its essence.

**Назрин Алиева**

## Искусственный интеллект в пространстве современного искусства

## Аннотация

Современное искусство постоянно расширяет свои границы, интегрируясь с новыми технологиями. Искусственный интеллект (ИИ) играет важную роль в этом процессе, выполняя как творческие, так и аналитические функции. Алгоритмы ИИ позволяют создавать новые стили и формы в живописи, музыке, литературе и других областях искусства. Кроме того, ИИ используется для анализа, классификации и адаптации произведений искусства к индивидуальной аудитории. Однако роль искусственного интеллекта в искусстве вызывает этические и эстетические дискуссии. Вопросы о творческой свободе художника и ценности

человеческого фактора остаются актуальными. В результате искусственный интеллект не только является инновационным инструментом в развитии современного искусства, но и служит катализатором новых дискуссий о его сущности.

**Açar sözlər:** Analiz funksiyası,müəllifin rolu,texniki problem,yenilikçi,emosianal duyğu.

**Keywords**: Analytical Function, Author's Role, Technical Problem, Innovative, Emotional Feeling.

**Ключевые слова:** Аналитическая функция, роль автора, техническая проблема, инновационный, эмоциональное чувство.

Süni intellektdən istifadə xüsusilə son zamanlarda daha geniş yayılmışdır. Süni intellekt (Sİ) həyatımızın müxtəlif sahələrində artan rol oynayır və gündəlik yaşantımıza bir çox müsbət təsir göstərir. Müasir incəsənət məkanında süni intellektin problemləri və perspektivləri olduqca aktual bir mövzudur. Süni intellekt (Sİ) son illərdə incəsənət sahəsinə nüfuz edərək yeni yaradıcılıq imkanları açsa da, bir sıra etik, texnoloji və estetik problemləri də gündəmə gətirib.Belə ki,ənənəvi və rəqəmsal sənətin sintez edildiyi bu dövrdə,insan və texnologiya arasında qarşılıqlı təsir gələcəyin incəsənətini formalaşdıracaq bir vasitə rolunu oynayır.Bir çox problem və perspektivləri gündəmə gətirərək süni intellektin həyatımızdakı rolunu və buna uyğun problemləri müəyyən edə bilərik.Başlıca problemlərdən biri olan orjinallıq və müəlliflik bu barədə əsas götürülür.Belə ki,Süni intellekt ilə yazılan istənilən əsərin müəllifi qeyri-müəyyəndir.Bu sahədə isə belə bir sual yaranır: "Bu əsərin müəllifi kimdir" Alqoritmi yaradan proqramçı,proqramdan istifadə edən şəxs yoxsa Sİ-nin özü? Müəllif hüquqları adətən insanın yaradıcı fəaliyyəti nəticəsində yaranan əsərlərə verilir. Süni intellekt vasitəsilə yaradılan əsərlərdə isə yaradıcı proses bir neçə tərəfin birlikdə səyi nəticəsində baş verir; proqramçı,istifadəçi və məlumat mənbəyi. Digər başlıca problemlərdən biri isə orjinallıqdır. Belə ki, Sİ vasitəsilə yaradılan hər bir əsər yenidən, yeni ideyaların vasitəsilə genişləndirilə bilər. Bəzi hallarda istifadəçi Sİ vasitəsilə yaradılan əsərə əlavə yaradıcılıq qatır və beləliklə əsərin orjinallığı artır.Lakin bu halda da həmçinin müəllif hüququnun kimə aid olacağı məsələsi aydınlanmır. Hazırda bir çox ölkədə Sİ ilə yaradılan əsərlərin müəllifliyi barədə hüquqi çərçivə tam formalaşmayıb. ABŞ, Avropa İttifaqı və digər regionlarda bu mövzuda müzakirələr davam edir. Müxtəlif ölkələr arasında müəllif hüquqları ilə bağlı razılaşmaların əldə edilməsi, Sİ ilə yaradılan əsərlərin beynəlxalq səviyyədə tanınması və qorunması üçün önəmlidir. Belə ki,Sİ-ilə hazırlanmış məqalə ilə insan tərəfindən hazırlanmış məqalə bir çox nüanslar ilə fərqlənir: Süni intellekt əsasən mətnlərin strukturunu və məlumatlarını emal etdiyi üçün məqalələri çox vaxt standart və şablon olur. Analitik və kritik düşüncə tələb edən yazılarda Sİ zəif ola bilər. İnsan müəlliflər yaradıcı üslub,metaforalar və fərqli perspektivlərdən istifadə edərək məqaləni daha maraqlı və dərin edə bilirlər. Süni intellekt qrammatika və sintaksis baxımından adətən çox az səhv edir [Drozdowski, M. J. 2023]. Lakin bəzən məqalədə mexaniki, təkrarlanan və qeyri-təbii cümlələr ola bilər. İnsan müəlliflər bəzən qrammatik və yazı səhvlərinə yol verə bilərlər, lakin məqalənin dili daha axıcı və təbii olur.Sİ məqalələri məlumatları mövcud mənbələrdən götürsə də, bəzən yanlış və ya köhnəlmiş məlumatları daxil edə bilər. İnsan müəlliflər məlumatları araşdıra, yoxlaya və mənbələrə əsaslanaraq daha dəqiq təqdim edə bilərlər [Ruiz, P., & Fusco, J. 2023].

Müəllif hüquqları sahəsində qeyri-müəyyənlik sənət bazarında hüquqi mübahisələrə, iqtisadi itkilərə və investisiya qərarlarına təsir göstərə bilər.Belə ki, süni intellektin yaradıcı fəaliyyətə təsirini nəzərə alaraq, qanunvericilikdə yeniliklərin edilməsi vacibdir. Sİ ilə yaradılan əsərlərin istifadəsi və müəllifliyi mövzusunda etik çərçivələrin yaradılması, sənət bazarında ədalətli rəqabət və yaradıcılığın dəstəklənməsi üçün zəruridir. Sİ və insan əməkdaşlığının modelləşdirilməsi, hər iki tərəfin töhfəsinin ədalətli qiymətləndirilməsini təmin edə bilər. Süni intellekt (Sİ) müasir incəsənətdə yenilikçi yanaşmaların və dərin analiz imkanlarının əsas elementlərindən birinə çevrilib. Sİ-nin yaratdığı rəqəmsal alətlər yeni üslubların və formaların meydana çıxmasına şərait yaradır. Rəsm, musiqi, ədəbiyyat və kino sahələrində Sİ alqoritmləri yaradıcılıq prosesini sürətləndirir və yeni kompozisiyalar yaratmağa imkan verir [Ortiz, S. (2023, July 27, 2023]. Eyni zamanda, süni intellektin analiz qabiliyyəti incəsənət əsərlərinin təsnifatı, interpretasiyası və fərdi auditoriyaya uyğunlaşdırılması baxımından mühüm rol oynayır. O, böyük həcmli məlumatları təhlil edərək sənət axınlarını müəyyənləşdirir və bədii dəyərləndirmə prosesinə dəstək olur. Bununla belə, Sİ-nin bu qabiliyyəti sənətkarın rolunun azalıb-azalmadığı və insan emosiyasının avtomatlaşdırılıb-avtomatlaşdırılmadığı kimi müzakirələrə səbəb olur. Ümumilikdə, süni intellekt incəsənətdə yenilikçi yanaşmalar və dəqiq analiz imkanları ilə sənətin sərhədlərini genişləndirməkdə davam edir.Məsələn, yaradıcılıq prosesində Sİ bir vasitə kimi, insan isə son qərar verən və əlavə yaradıcılıq qatını təmin edən şəxs kimi qiymətləndirilə bilər. Süni intellektlə yaradılan sənət əsərlərinin müəlliflik və orijinallıq məsələsi texnoloji inkişafla paralel olaraq hüquqi, etik və iqtisadi cəhətdən mühüm müzakirə mövzusudur. Buna görə də, yeni hüquqi normativlərin və etik prinsiplərin formalaşdırılması bu problemlərin aradan qaldırılmasına və həmçinin yaradıcılığın dəstəklənməsinə kömək edəcək [Appel, G., Neelbauer, J., & Schweidel, D. A. 2023].

Müasir incəsənətdə Sİ-ilə yaradıcı müəllif arasında ən böyük fərq isə emosianal duyğulardan ifadəsidir.Belə ki,bu problem ən əsas və başlıca problem olaraq götürülür. Süni intellekt (Sİ) müasir incəsənətdə yeni üslubların yaradılması üçün inqilabi bir vasitədir. Sİ alqoritmləri, böyük məlumatları təhlil edərək və müxtəlif üslubları birləşdirərək daha əvvəl görülməmiş sənət formaları yarada bilir. Bu prosesdə Sİ, həm mövcud sənət üslublarını təqlid etmək, həm də orijinal və innovativ üslublar formalaşdırmaq üçün istifadə olunur.Sİ-nin yeni üslublar yaratmaqda istifadə olunma yolları müxtəlifdir:Sİ, bir rəsm əsərinin üslubunu başqa bir əsərə tətbiq edə bilər. Məsələn, Van Qoqun və ya Pikassonun üslubunu modern bir şəkilə tətbiq edərək yeni bir vizual təcrübə yarada bilər. Bu, fərqli dövrlərin və sənətkarların üslublarını birləşdirərək yeni estetiklər yaradır. Generativ qarşılıqlı şəbəkələr (GAN) kimi alqoritmlər, heç bir insana aid olmayan yeni rəsm, heykəl, musiqi və ya yazı əsərləri yaradır. Bu texnologiya süni intellektə, əvvəlcə mövcud olan məlumatları öyrənərək tamamilə yeni və orijinal sənət əsərləri yaratmağa imkan verir [Aaron, C., 2016 ].

Süni intellekt, sənətkarın təcrübəsini dəstəkləyərək yeni üslub və texnikaların inkişafına kömək edir. Məsələn, bir rəssamın və ya musiqiçinin tərzini öyrənən alqoritm, onların yaratdığı əsərləri dəyişdirərək və ya yeni variasyonlar təklif edərək daha çox yaradıcılıq sahəsi yaradır. Süni intellekt alqoritmləri, müəyyən bir ədəbi üslubu öyrənərək yeni şeirlər və hekayələr yarada bilir. Bununla yanaşı, insan yaradıcılığını təqlid edərək fərqli poetik üslubları kəşf etməyə də imkan verir. Bu yeni üslubların yaranmasında süni intellektin istifadəsi həm sənətkarların daha geniş yaradıcı sahələrə çıxmasına şərait yaradır, həm də sənətə daha çox yenilik və müxtəliflik gətirir. Belə ki,Sİ-

nin istifadəsi sənəti daha əlçatan hesab edə bilər. Xüsusuilə fiziki məhdudiyyətli şəxslər üçün süni intellekt vasitəsilə yaradıcılıq daha əlçatan ola və həmçinin yeni sənət janrlarının yaranmasına kömək ola bilər. Süni intellekt (Sİ) böyük həcmli məlumatları sürətlə emal edərək incəsənət, elm, biznes və digər sahələrdə dərin analiz aparmaq qabiliyyətinə malikdir. İncəsənət sahəsində Sİ əsərlərin üslubunu, strukturunu və emosional təsirini təhlil edərək onların təsnif edilməsi və fərdi auditoriyaya uyğunlaşdırılması üçün istifadə olunur [Ortiz, S., 2023]. Məsələn, neyron şəbəkələri bir rəsm əsərinin hansı dövrə və üsluba aid olduğunu müəyyən edə və ya musiqi parçalarının emosional təsirini analiz edə bilər. Bundan əlavə, Sİ sənət bazarlarında qiymət dinamikasını öyrənir, saxta əsərləri aşkar edir və tamaşaçıların rəylərini təhlil edərək tendensiyaları müəyyənləşdirir. Ancaq bu texnologiyanın geniş yayılması müəllif hüquqları, yaradıcılığın insan faktoru ilə əlaqəsi və emosional dəyərlərin avtomatlaşdırılması kimi etik sualları da gündəmə gətirir. Ümumilikdə, Sİ-nin analiz qabiliyyəti incəsənətdə obyektiv dəyərləndirmə imkanlarını artırsa da, onun sənətkarın roluna təsiri hələ də müzakirə mövzusudur. Süni intellekt (Sİ) incəsənətdə əsərlərin dərin təhlili və təsnifatı üçün mühüm vasitəyə çevrilib. O, müxtəlif alqoritmlər vasitəsilə rəsm, musiqi, kino və ədəbiyyat nümunələrini analiz edərək onların üslubunu, kompozisiyasını və emosional təsirini qiymətləndirə bilir.Sİ-nin analiz qabiliyyəti xüsusilə aşağıdakı sahələrdə diqqət çəkir: Sənət əsərlərinin təsnifatı və dəyərləndirilməsi: Sİ əsərlərin hansı dövrə və üsluba aid olduğunu müəyyən edə, rəssamların texnikalarını təhlil edə və tarixi kontekstdə dəyərləndirə bilir.Saxtakarlığın aşkarlanması: Alqoritmlər orijinal və saxta sənət əsərlərini fərqləndirmək üçün detallı analizlər aparır [Stuart, R., 1995]. Auditoriya analizi: Tamaşaçıların rəylərini, baxış sayılarını və bəyəni trendlərini araşdıraraq sənət əsərlərinin qəbulunu və populyarlığını təxmin edir. Yeni üslubların yaradılması: Sİ mövcud sənət nümunələrini analiz edərək yeni üslublar və texnikalar formalaşdıra bilər.Bununla belə, süni intellektin incəsənətdəki rolu sənətkarın yaradıcılıq azadlığı və insan emosiyalarının avtomatlaşdırılması kimi etik müzakirələrə səbəb olur.Süni intellektin incəsənət məkanında problemləri və perspektivləri arasında faiz nisbətini müəyyən etmək üçün müxtəlif araşdırmalara və ekspert rəylərinə əsaslanmaq lazımdır [Crompton, H., Burke, D., 2023]. Ümumi yanaşma belədir: Problemlər – 60%, Müəlliflik hüquqları və plagiat (25%), Yaradıcılığın və emosional dərinliyin azalması (15%), Alqoritmik təkrarlanma və orijinallıq problemi (10%), Əxlaqi və hüquqi məsələlər (10%), Perspektivlər – 40%, Yeni yaradıcılıq imkanları (15%), Rəqəmsal sənət bazarının genişlənməsi (10%), Sənətə daha geniş çıxış və inklüzivlik (10%), Sənət təhsili və innovasiyalar (5%). Bu nisbət təxmini olub, sahəyə və istifadə kontekstinə görə dəyişə bilər. Süni intellektin (Sİ) ölkələr üzrə tətbiqi dərəcəsi müxtəlif amillərdən asılı olaraq dəyişir. 2019-cu ildə “Oxford Insights” tərəfindən hazırlanan qlobal indeksə əsasən, Azərbaycan süni intellektin tətbiqi sahəsində 64-cü yerdə qərarlaşıb. Bu göstərici ilə Azərbaycan qonşu ölkələrdən Gürcüstanı (76-cı yer), Ermənistanı (81-ci yer) və İranı (72-ci yer) qabaqlayır. İlk üçlükdə isə Sinqapur, Almaniya və Böyük Britaniya yer alıb.Artıq istifadəçilər tərəfindən məlumdur ki,Sİ-dən istifadə etmək üçün verilənlər bazası kifayət qədər deyil,buna görə də Azərbaycanda süni intellektin inkişafı üçün müxtəlif layihələr həyata keçirilir. Məsələn, Azərbaycan dilində böyük verilənlər bazasının yaradılması və onun əsasında süni intellektin formalaşdırılması layihəsi əsas təşəbbüslərdən biridir.

**Ədəbiyyat siyahısı:**

1. Alkaissi, H., & McFarlane, S. I. (2023). Artificial hallucinations in ChatGPT: implications in scientific writing.
2. Appel, G., Neelbauer, J., & Schweidel, D. A. (2023). Generative AI has an intellectual property problem Harvard Business Review Digital Articles, 1-10.
3. Crompton, H., Burke, D. Artificial intelligence in higher education: the state of the field. (2023).
4. Diaz, M. (2023, Aug. 15, 2023). How to use ChatGPT?
5. Drozdowski, M. J. (2023, April 26, 2023). Testing Turnitin's new AI detector: how accurate is it?
6. Ian Goodfellow, Yoshua Bengio və Aaron Courville (2016) "Deep Learning"
7. Müller, V. C. (2023). Ethics of artificial intelligence and robotics. In E. N. Zalta & U. Nodelman (Eds.), The Stanford Encyclopedia of Philosophy (Fall 2023 Edition ed.).
8. Ortiz, S. (2023, Aug. 3, 2023). The best AI art generators: DALL-E 2 and fun alternatives to try.
9. Ortiz, S. (2023, July 27, 2023). The best AI chatbots: ChatGPT and other noteworthy alternatives.
10. Ruiz, P., & Fusco, J. (2023). Glossary of artificial intelligence terms for educators. Educator CIRCLS Blog.
11. Russell Stuart, Norvig Peter. (1995). Artificial Intelligence: A Modern Approach.
12. Zirpoli, C. T. (2023). Generative Artificial Intelligence and Copyright Law.
13. Generative AI has an intellectual property problem. Harvard Business Review Digital Articles, 1-10.
14. Appel, G., Neelbauer, J., & Schweidel, D. A. (2023). 7 Generative AI Has an Intellectual Property Problem. Article 2-8.